

Aydın
MUROVDAĞLI

# YAŞA CƏNAB PREZİDENT!

(Zəfər Marşı)

Hikmətlər ölkəsinə çağırdın Avropanı,
Varaqlandı Xəzərin "Azərbaycan" dastanı...
Yer üzünə açıldı pəhləvanlar meydanı,
Yaşa, cənab Prezident!

Sənin ali sözündü gövhərimiz, ləlimiz,
Nə zaman danışırsan, çiçək açır dilimiz.
Nəfəsinlə dirildi min yaşlı məşəlimiz,
Yaşa, cənab Prezident!

Avropa oyunları nardan çıxan sirr oldu,
Əlçatmaz əzəmətə idraklar əsir oldu...
Tanrı kölgəsi Bakı ocaq oldu, pir oldu,
Yaşa, cənab Prezident!

Ən uca kürsülərdə Odlar Yurdu yer aldı,
Qızıl, gümüş medallar Atəşgahdan nur aldı,
Qaliblər gül içində sevgi dolu "Nar" aldı,
Yaşa, cənab Prezident!

Rəssam zaman şəklini kətan səmaya çəkdi,
Vətəni belə sevmək, haqqı əzizləməkdi...
Sənin təbəssümünü cahan qəlbinə əkdi,
Yaşa, cənab Prezident!

Qoca Şərqə - bu ərzə haqqı bəyan eylədin,
Əməlinlə dünyanı min yol heyran eylədin,
Sən bu qəhrəman xalqı daha azman eylədin,
Yaşa, cənab Prezident!

Millət boyda ürəyi bu bəşər səndə gördü,
Haqqa salam verməyi bu bəşər səndə gördü,
Amalı böyütməyi bu bəşər səndə gördü,
Yaşa, cənab Prezident!

Üçrəngli bayrağımla fəth elədin göyləri,
Hünərin Babəkimin, Xətaimin hünəri.
Sən Hörmüz xislətinlə yıxdın Əhriman şəri,
Yaşa, cənab Prezident!

Sənin ali imzandı bu millətin imzası,
İmzanla Vətən oldu müqəddəslər qalası,
İdrakından güc alır Azərbaycan erası,
Yaşa, cənab Prezident!

Mənim daş kitabxanam Qobustandan gəldi səs:
"Rəhbəri güclü xalqa əsla bir xəta gəlməz...
"Sənin bir adın da var: Çox möhtəşəm, əyilməz,
Yaşa, cənab Prezident!

Bu gün türk dünyasının Ərtoğrul timsalısan,
İndən belə nə qədər zəfərlər çalmalısan,
Sən mənim qələbələr, zəfərlər marşalımsan,
Yaşa, cənab Prezident!

01 iyul 2015-ci il